**FUAD ABBASLI**

# Simurq quşu

*Şeirlər*

QANUN NƏŞRİYYATI

**Fuad Abbaslı. Simurq quşu**
Bakı, Qanun Nəşriyyatı, 2026, 336 səh.

Ölçü: 135x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 21.05.2026

| | |
|---|---|
| Korrektor: | Əyyar Tahir |
| Mətn dizaynı: | Gülnar Zahid |
| Qapaq dizaynı: | Kənan Eynullayev |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-608-54-0

© Qanun Nəşriyyatı, 2026
© Fuad Abbaslı, 2026

*Kitabda müəllifin uzun illərdən bəri yazdığı şeirlər toplanmışdır. Müəllif öz duyğu və düşüncələrini Azərbaycan ədəbiyyatının və bədii-fəlsəfi lirikanın zəngin irsindən bəhrələnərək müxtəlif janrlarında ifadə etmişdir.*

*Kitabda eyni zamanda Azərbaycanın tarixi, tarixi keçmişi ilə bağlı ədəbi nümunələr yer almışdır. Müəllif yazıya çevirdiyi şeirlərdə Azərbaycan türk ədəbi dilinin saflığına xüsusi diqqət ayırmışdır.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

Qəlbim yaralı, axır gedir ürəyimin qanı,
Axır gedir bir çay kimi, sulayır bütün hər yanı.

Bir quş uçur havaya, qanad açır uzaqlarda,
Bir ac pişikdən qurtulmuş, çox şirindir əziz canı.

Külək əsir, axşam çökür qədim yurdlara, çöllərə,
Bir rəssam gərəkdir çəksin qürub çağında bu anı.

Çayın qumlu sahillərində gəzirəm addım-addım,
O biri tayda komalar, Araz çayının seyranı.

Şəffaf sular gah boz olur, gah göy olur, dalğalanır,
Belə bir gözəl axşamda könlüm Arazın heyranı.

ꕤ

Saçaqlı söyüd ağacı, yanında uca çinar,
Oturub ağac altında, bir cavan, əlində tar.

Tökülür gözlərindən ötən illərin qəmi,
Ötüb keçən illərdən ona qalmış yadıgar.

Tarı sıxıb qoynuna, həm tutub əlləriylə,
Simlərdən kədər çıxır, onu yayır rüzigar.

Bu nə qərib bir səsdir, sanki qədimdən gəlir,
Onda ötən illərin qüssəsi, kədəri var.

Bu necə bir kədərdir, yayılır rüzigarda,
Tarın kövrək səsində çarə axtarır naçar.

Bu nə tarın səsidir, nə də könül naləsi,
Rüzigarın səsidir, dərdimizi çəkir car.

Qarışıb rüzigara tarın səsi ağlayır,
Öz səsini dinləyir özündən durub kənar.

Yay ayları, yol boyunca bitmiş çinar,
Yarpaqları xışıldayar, bizə sərinlik sunar.

Çinarın kölgəsində dincələr yorğun ürəyim,
Altında bulaq çıxar, içərəm ürəyim yanar.

Əsər sərin yellər, titrədər çinarın yarpaqların,
Ruhum titrər, özünə çinarın yarpaqların həmdəm sanar.

Xışıldayar yarpaqları, sanki cənnətdən yel əsir,
Bu səs keçən günləri, ayları, illəri anar.

Al idi gülün yanağı, gördüm onu qızılgüldür,
Həyətimizdə bitən qızılgüldür, aydaaçar.

Axşam gözlərdən uzaq çəkilərəm bir guşəyə,
Qəlbimdən axar bir bulaq, düşüncələrim yol çəkər.

Gəzərəm yollarda mən, yorğun olaram, duraram,
Axşam qaranlıq düşəndə sanki xəyallarım çökər.

Gedərəm uzaq ellərə, həm gəzərəm, dolaşaram,
Qayıdaram evimizə payızda yetişəndə nar.

Sənin ruhundur təsəlli, hər tərəfə nur saçır,
Sən gələndə bahar olur, bənövşələr güllər açır.

Dodaqlarından axır soyuq büllur bulaq çölə,
Dodaqlarından axan soyuq suyu çöllər içir.

Ey sevgilim, gəl dayanaq baxaq dumanlı dağlara,
Bulud gəlir, yağış yağır, bu dağlara duman çökür.

Mən də bir bülbül kimi girdim gül baxçasına,
Gəl gör yazıq bülbülü çiçəklərdən ətir çəkir.

Süründüm ardınca mən dağdan axan irmağ kimi,
Çatdım sənin mənsəbinə, gördüm yoldan karvan keçir.

Tutdum gözəl əllərini, yanağına sığal çəkdim,
Dedilər iki sevgili ormanlara doğru qaçır.

Eşq xəyalı Simurq quşu, qondu ipək köynəyinə,
O quş deyil, bir mələkdir, bir bax, üfüqlərdə uçur.

ꕥ

Səhəndin ətəyində görünür qədim Təbriz,
Yamaclarında bitər bənövşə, lalə, nərgiz.

Həm şəhər özü gözəl, həm də onda gözəllər,
O gözəllərin üzün görə bilmədim hərgiz.

Səhər dağlara çökər duman, sonra yayılar,
Gün çıxdıqca çəkilər həm duman, həm də ki sis.

Könlüm yuva qurmuşdur bir quştək baxçasında,
Cəh-cəh vurur bülbültək gül fərağında məriz.

Mən ki bir fəqir idim, bir gün gəldim şəhərə,
Həm gördüm bu şəhəri, həm oldum ona munis.

Gözəl bir qız gördüm mən, axşam göl kənarında,
Həm kirpiklər altında baxır bir cüt ala göz.

Qoynunda yuva qurmuş Qızılbaş sultanları,
Əsrlərdən gətirir bizə min bir soraq, iz.

Gəlmişəm hüzuruna uzaq, Qüzey ellərdən,
Sənə çatmasam bitməz qəmim, kədərim hənuz.

Fuad sənin suyuna susamışdır, bir cam sun,
Küçələrində sunar bulaq suyunu kəhriz.

Sarılaydım boynuna axşam əsən külək kimi,
Toxunaydım köynəyinə boynunda şal ipək kimi.

Səni gördüm, zənn etdim ki, Tanrı önündə durmuşam,
Bir qız gördüm, ya Tanrıdır, ya da baxır mələk kimi.

Mən bir məyus sərsəriyəm, istərəm qəlbinə axım,
Öpüm bal dodaqlarından, sənin olum ürək kimi.

Saralır quru yarpaqlar, qırılır, düşür gövdədən,
Toxunaydım ayağına yerə düşən yarpaq kimi.

Yenə də gəlir xəyalıma sevgili yar,
Sənə bir məktub yazdım, bir arzu, bir istək kimi.

Gəl bizim baxçamıza, axşamüstü seyrə çıxaq,
Bizə baxır al qızılgül, yanağında çiçək kimi.

Açıq qoy pəncərəni, hər gün, hər səhər, hər axşam,
Düşərəm otağına çöldə uçan lələk kimi.

Bil ki sənə aşiq oldum, axır gözlərimdən yaşlar,
Bulud gəlir, yağış yağır, göydə çaxan şimşək kimi.